

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

19 fevral 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 7 (3770)


# Tərəfdaşlıq dərinləşir



## Qarşılıqlı səfərlər əməkdaşlığın gücləndiyini göstərir

***Azərbaycan Prezidenti İlham Əliyev:***
***"Bizim gələcək üçün də açıq-aydın planlarımız var. Həm siyasi, həm iqtisadi, həm də energetika sahəsində əlaqələrimizi daha da gücləndirəcəyik".***

***Serbiya Prezidenti Aleksandar Vuçiç:***
***"Sizinlə danışanda bir çox məsələləri təcrübəli dövlət xadimi, həqiqi liderin fərqli baxış bucağından müşahidə etməyə müvəffəq oluram".***

Azərbaycan ilə Serbiya arasında diplomatik əlaqələr 1997-ci ilin avqustunda qurulub və həmin vaxtdan bəri qarşılıqlı etimada söykənən əməkdaşlıq ardıcıl şəkildə inkişaf edir.

Prezident İlham Əliyevin müxtəlif illərdə Serbiyaya etdiyi səfərlər bu münasibətlərin formalaşmasında mühüm rol oynayıb. Serbiyanın dövlət başçıları da Azərbaycana səfərlər edərək əməkdaşlığın dərinləşməsinə töhfə veriblər. Dövlətimizin başçısının Serbiyaya son rəsmi səfəri də bu əlaqələrin növbəti təsdiqi kimi yadda qaldı. Görüşlər zamanı münasibətlərin hazırkı səviyyəsi və gələcək inkişaf perspektivləri geniş müzakirə edildi. Serbiya Prezidenti Aleksandar Vuçiç Prezident İlham Əliyevin təcrübəsini və liderlik keyfiyyətlərini xüsusi vurğulayaraq iki ölkə arasında şəxsi etimada əsaslanan münasibətlərin əhəmiyyətini qeyd etdi.

Son illər ticarət dövriyyəsinin artması, xidmət sektorunda əlaqələrin genişlənməsi və qarşılıqlı investisiyaların yüksəlməsi tərəfdaşlığın praktiki nəticələrini ortaya qoyur.

2012-ci illə müqayisədə xidmətlər sahəsində ticarət dövriyyəsinin dəfələrlə artması siyasi dialoqun iqtisadi müstəvidə səmərəli nəticə verdiyini göstərir. Azərbaycanın Serbiyanın enerji təhlükəsizliyində mühüm tərəfdaş kimi çıxış etməsi əlaqələrin strateji məzmununu daha da gücləndirir. Serbiyaya təbii qaz ixracının başlanması və həcminin artırılması ilə bağlı razılaşmalar bu sahədə etibarlı əməkdaşlığın mövcudluğunu təsdiqləyir. Serbiyada 500 meqavat gücündə elektrik stansiyasının birgə tikintisi planı isə münasibətlərin yeni mərhələyə daşıyır. Bu layihə həm iqtisadi fayda vəd edir, həm də tərəflər arasında uzunmüddətli tərəfdaşlıq üçün möhkəm əsas yaradır.

Belqradda Strateji Tərəfdaşlıq Şurasının ilk iclasının keçirilməsi münasibətlərdə institusional əməkdaşlığın gücləndiyini sərgilədi. Müasir dövrdə qarşılıqlı məsləhətləşmə və koordinasiya dövlətlərarası münasibətlərdə əsas amillərdəndir.

Bu mexanizm gələcək əməkdaşlıq planlarının sistemli şəkildə həyata keçirilməsinə imkan yaradacaq.

Səfər çərçivəsində müxtəlif sahələri əhatə edən sənədlərin paraflanması da diqqət çəkdi. Qida təhlükəsizliyi, enerji, iqtisadiyyat, media, mədəniyyət, idman və tibbi sığorta sahələrində nəzərdə tutulan əməkdaşlıq proqramları əlaqələrin çoxşaxəli xarakterindən xəbər verir.

2026-cı ildən 2030-cu ilə qədər mədəniyyət sahəsini əhatə edən proqramın qəbul olunması xalqlar arasında təmasların daha da artacağına işarədir.

Bakı ilə Belqrad arasında birbaşa aviareyslərin açılması isə turizm, biznes və tələbə mübadiləsi üçün yeni imkanlar yaradacaq.

# Rəqəmsal təhlükəsizlik...

## Kibertəhlükəsizlik üzrə əsas hədəflər müəyyən edilir

**Fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə keçirilib.**

Dövlətimizin başçısı çıxışında rəqəmsal transformasiya prosesinin qarşısında duran əsas vəzifələri, prioritet istiqamətləri və gələcək hədəfləri aydın şəkildə ifadə edib.

Prezident İlham Əliyev bildirib ki, rəqəmsallaşma sahəsində dövlət qurumları arasında sıx və ardıcıl koordinasiya təmin edilməlidir. Bu istiqamətdə pərakəndə yanaşmalar qəbuledilməz sayılır. Prezidentin tapşırığına əsasən, qısa müddət ərzində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi digər dövlət qurumları ilə birgə konkret tədbirlər planı hazırlamalı və təqdim etməlidir.

Dövlətimizin başçısı qeyd edib ki, bu sahədə işlərin daha səmərəli təşkili üçün hər bir dövlət qurumunda, xüsusilə nazirliklərdə rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik üzrə məsul şəxs müəyyənləşdirilməlidir.

Son illərdə müxtəlif dövlət qurumları tərəfindən yaradılmış platforma və tətbiqlərə də toxunan Prezident vurğulayıb ki, artıq bu sahədə mərkəzləşmiş yanaşmaya keçid vaxtı çatıb. Dövlət xidmətləri vahid mərkəzdən, "mygov" platforması üzərindən göstərilməlidir.

Çıxışda kadr hazırlığı məsələsi, süni intellektin dövlət idarəçiliyində tətbiqi də Prezidentin xüsusi vurğuladığı məsələlərdən olub. Dövlətimizin başçısı qeyd edib ki, qabaqcıl ölkələrdə süni intellekt artıq dövlət məmurlarının gündəlik fəaliyyətində yardımçı vasitə kimi istifadə olunur. Bu texnologiyalar qərarların daha düzgün və operativ verilməsinə töhfə verir. Bu baxımdan, rəhbər vəzifələrdə çalışan şəxslərin süni intellekt imkanlarından geniş istifadə etməsi vacib hesab olunur.

Kibertəhlükəsizlik mövzusu isə çıxışın əsas və ən həssas hissələrindən biri olub.

Dövlətimizin başçısı vurğulayıb ki, kibertəhlükəsizlik milli təhlükəsizliyin ayrılmaz tərkib hissəsidir. Keçən il Azərbaycanın ciddi və təşkilatlanmış kiberhücuma məruz qalması bu sahədə risklərin real olduğunu bir daha göstərib. Prezident qeyd edib ki, hücumun mənbəyi məlumdur və zəruri tədbirlər görülüb.

Bununla belə, kibertəhlükəsizlik üzrə əsas hədəflər dəqiq müəyyən edilməli və bu sahəyə davamlı diqqət göstərilməlidir. Fəaliyyət göstərən Kibertəhlükəsizlik Mərkəzinin işi daim nəzarətdə saxlanılmalıdır.

# Münxen görüşləri

## Beynəlxalq tərəfdaşlarla siyasi dialoq aparılıb

Prezident İlham Əliyev Münxendə keçirdiyi görüşlər çərçivəsində bir sıra dövlət və hökumət rəsmiləri ilə müzakirələr aparıb.

Dövlətimizin başçısı Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşdə enerji sahəsi də daxil olmaqla əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə edib. Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi humanitar dəstəyə, xüsusilə ukraynalı uşaqlara olan diqqətə görə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev Bolqarıstan Prezidenti İliyana Yotova ilə görüşdə mədəniyyət, enerji, kənd təsərrüfatı, turizm və digər sahələr üzrə əməkdaşlıq perspektivlərinə toxunub.

Slovakiyanın Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinak ilə görüş zamanı ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı vurğulanıb, əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirilib. Dövlətimizin başçısı həmçinin İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani, Bundestaqın Xarici siyasət komitəsinin sədri Armin Laşet , Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas ilə siyasi dialoq aparıb.

Münxen çərçivəsində keçirilən bu görüşlər Azərbaycan beynəlxalq tərəfdaşlarla əməkdaşlıq imkanlarını ardıcıl şəkildə möhkəmləndirdiyini bir daha təsdiqləyib.

# Sülh de-fakto var

## Müqavilənin imzalanması üçün cəmi bir şərt qalır

"Ermənistanın Konstitusiyasına lazımi dəyişikliklər edilməlidir. O dəyişikliklər edilən kimi, ertəsi gün biz sülh müqaviləsini imzalaya bilərik".

Prezident İlham Əliyev fevralın 13-də Münxendə Azərbaycan telekanallarına müsahibəsində belə deyib. Dövlətimizin başçısı əlavə edib ki, buna baxmayaraq, artıq Ermənistanla Azərbaycan arasında sülh əldə edilib. Vaşinqton Zirvə Görüşündəki razılaşmalar, imzalanmış Birgə Bəyannamə və sülh müqaviləsinin paraflanması de-fakto sülh deməkdir. Bunun formal tərəfi Ermənistandan asılıdır.

# Əlaqələr yüksək səviyyədədir

## Ərəb ölkələri ilə münasibətlər inkişaf edir

Fevralın 11-də Prezident İlham Əliyev Ərəb Parlamentinin prezidenti Məhəmməd Əhməd Əl-Yammahinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycanın ərəb ölkələri ilə siyasi və iqtisadi əlaqələrinin yüksək səviyyədə olduğu vurğulanıb, qarşılıqlı səfərlərin münasibətlərin genişlənməsinə töhfə verdiyi qeyd edilib. Dövlətimizin başçısı İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində görülən işlərə və Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarının əhəmiyyətinə toxunub. Söhbət zamanı işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa işləri və Ərəb Parlamenti ilə əməkdaşlığın perspektivləri müzakirə olunub.


Dəmir yolunda xidmət intizamı...........2

Böyük Qayıdışın mühüm mərhələsi...3

Ekoloji təhlükəsizlik prioritetdir.........3

Xüsusi Təyinatlıların Çempionatı.......4

# Respublika Xəbərləri

### Elektron siqaret çəkənlərin nəzərinə...

Azərbaycanda qadağan edilən yerlərdə elektron siqaret çəkənlər 30 manat cərimə ediləcək. Bununla bağlı İnzibati Xətalar Məcəlləsinə yeni maddələr əlavə edilir. Milli Məclisin müvafiq komitəsində müzakirəyə çıxarılan sənədə əsasən, qadağan edilmiş yerlərdə, küçələrdə və digər ictimai yerlərdə elektron siqaretlərin istifadəsinə görə 30 manat məbləğində cərimə tətbiq ediləcək.

### Qadın hərbçilər üçün yenilik

Azərbaycanda qadın hərbçilər üçün müddətdən artıq həqiqi hərbi xidmət (MAXE) müddəti 3 ildən 6 ayadək azaldılır. Dəyişiklik layihəsi Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin onlayn iclasında müzakirə olunub.

### Yol-nəqliyyat hadisələri azalıb

Keçən il Azərbaycanda 1 252 və ya 2024-cü illə müqayisədə 12,3 faiz az yol-nəqliyyat hadisəsi baş verib. Bu barədə Dövlət Statistika Komitəsinin məlumatında qeyd olunub ki, qəzalar nəticəsində zərər çəkən şəxslərin sayı 12,1 faiz azalaraq 1 715 nəfər olub. Onlardan 689-u ölüb, 1026-sı isə yaralanıb.

### Xocalı dirçəlir

Fevralın 16-da Xocalı şəhərinə növbəti köç olub. Həmin gün 149 nəfərdən ibarət 30 ailə doğma yurduna dönüb. 55 nəfərdən ibarət 12 ailə çoxmənzilli yaşayış binasındakı mənzillərlə, 94 nəfərdən ibarət 18 ailə isə yeni bərpa edilmiş fərdi yaşayış evləri ilə təmin olunub.

### İşsizlik səviyyəsi azalır

Yanvar ayında 30 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, onlardan 14 mini münasib işlərlə təmin edilib. Həmçinin ötən ay 950 şəxs üçün agentlik tərəfindən peşə hazırlığı kursları təşkil edilib, 15 min 75 şəxsə peşəyönümlü xidmətlər göstərilib.

### Məhkumların psixoloji vəziyyəti qiymətləndirilir

Sosial Xidmətlər Agentliyi və Penitensiar xidmətin birgə əməkdaşlığı çərçivəsində cəza çəkməkdən azad edilməsinə 3 ay qalmış məhkum şəxslərlə ilkin sosial-psixoloji qiymətləndirmə işləri aparılır. Agentliyin mütəxəssisləri tərəfindən ötən il həmin kateqoriyadan olan 82, 2024-cü ildən bugünədək isə 130-a yaxın şəxslə qiymətləndirmə aparılıb.

### Gəlirlər proqnozu üstələyib

Yanvar ayında dövlət büdcəsinin icrasında müsbət dinamika müşahidə olunub. Ötən ay ərzində dövlət büdcəsinin gəlirləri 3 milyard 707,3 milyon manat təşkil edib ki, bu da aylıq proqnozu 32 milyon manat və ya 0,9 faiz üstələyib.

### Ümumi daxili məhsul yenə artıb

2026-cı ilin yanvar ayında ölkədə 9078,7 milyon manatlıq və ya əvvəlki ilin yanvar ayı ilə müqayisədə 1,7 faiz çox ümumi daxili məhsul istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,6 faiz, qeyri neft-qaz sektorunda isə 2,3 faiz artıb.

### Süni intellekt tətbiqi genişlənir

Əlilliyin qiymətləndirilməsində süni intellekt texnologiyaları tətbiq ediləcək. Həmin tətbiq çərçivəsində tibbi-sosial məlumatların dərin təhlili, çoxmənbəli informasiya bazalarının inteqrasiyası, sənədlərin avtomatlaşdırılmış emalı və riskəsaslı qiymətləndirmə mexanizmlərinin daha da təkmilləşdirilməsi nəzərdə tutulub.

### Azərbaycanın nəqliyyat dəhlizi

Ötən il nəqliyyat dəhlizlərində dəmir yolu nəqliyyatı ilə 14 milyon 261,4 min ton, avtomobil nəqliyyatı ilə 11 milyon 46,1 min ton və dəniz nəqliyyatı ilə 7 milyon 229,7 min ton yük daşınıb. Dəmir yolu nəqliyyatı ilə daşınmış yüklərin 46,2 faizini, avtomobil nəqliyyatı ilə daşınmış yüklərin 42,3 faizini, dəniz nəqliyyatı ilə daşınmış yüklərin 93,3 faizini tranzit yüklər təşkil edib.

### Cinayət cəzasız qalmır

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ruben Vardanyan barəsində yekun məhkəmə qərarı elan olunub. R.Vardanyan 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.

# Dəmir yolunda xidmət intizamı

## Milyonlarla sərnişinin təhlükəsizliyi onlara əmanətdir

**Ölkənin nəqliyyat sistemində strateji yer tutan dəmir yolu nəqliyyatı ilə hər gün minlərlə sərnişin daşınır. Bu da, təbii ki, təhlükəsizliyin təmin olunmasını əsas məsələyə çevirir. Bu məsuliyyətli vəzifə isə Nəqliyyatda Baş Polis İdarəsinin Dəmiryolu Nəqliyyatında Polis İdarəsinin əməkdaşlarının çiyinlərindədir.**





İl ərzində 10 milyondan çox sərnişinin təhlükəsizliyi məhz bu idarənin əməkdaşları tərəfindən təmin edilir. İdarənin nəzdində iki əsas bölük fəaliyyət göstərir. Onlardan biri Sərnişin Qatarlarının Müşayiəti üzrə Post-Patrul Xidməti Bölüyüdür ki, onların xidməti fəaliyyətinin əsas istiqaməti qatarlarda ictimai asayişin və təhlükəsizliyin qorunması, sərnişinlərin sağlam və rahat şəkildə mənzil başına çatmasını təmin etməkdir.



### Qatarlarda fasiləsiz nəzarət və operativ müdaxilə təmin olunur

Sərnişinlərin mənzil başına təhlükəsiz çatması üçün bütün qatarlarda polis əməkdaşlarının xidməti təşkil olunub. Polis əməkdaşları tərəfindən qatar daxilində baş verən istənilən hadisə barədə dərhal məlumat verilir və adekvat tədbirlər görülür. Vağzallar və stansiyalarda fəaliyyət göstərən digər bölük - Post-Patrul Xidməti Bölüyünün əməkdaşlarının vəzifələrinə isə turniketlərdə sərnişinlərin və detektor vasitəsilə çantaların yoxlanılması daxildir.

### Minlərlə kilometrlik dəmir yolu xətləri boyunca asayiş qorunur

Respublika üzrə bütün vağzal, stansiya və dayanacaqlarda təxminən 4 min kilometr dəmir yolu xəttini əhatə edən ərazilərdə polis əməkdaşları tərəfindən təhlükəsizlik tədbirləri görülür. Sumqayıt dairəvi dəmir yolu xətti, Bakı-Qazax, Bakı-Ağstafa, Bakı-Qəbələ, Bakı-Balakən və həftədə bir dəfə həyata keçirilən Bakı-Ağdam reyslərində təhlükəsizlik idarənin əməkdaşları tərəfindən qorunur.

### Qatarlarda nələr qadağandır...

Xidmət zamanı bəzən intizamsız sərnişinlərə də rast gəlinir. Sərnişinlər arasında qatarlarda ən çox rast gəlinən inzibati qayda pozuntuları isə əsasən tütün məmulatlarından istifadə ilə bağlıdır.

Spirtli içki qəbul edərək ictimai qaydanı pozma və digər bu kimi sərnişinləri narahat etmə halları aşkar ediləndə həmin şəxs növbəti stansiyada qatardan endirilir və barəsində İnzibati Xətalar Məcəlləsinə uyğun tədbir görülür.

### Kütləvi tədbirlər zamanı təhlükəsizlik tədbirləri gücləndirilir

2025-ci il ərzində dəmir yolu nəqliyyatında baş verən inzibati xətalarla əlaqədar 1727 inzibati protokol tərtib olunub. Müxtəlif cinayətlərdə şübhəli bilindiyi və axtarışda olan 386 nəfər isə saxlanılaraq barələrində qanunamüvafiq tədbirlər görülüb.

Bununla yanaşı idarənin əməkdaşları ölkə ərazisində keçirilən mühüm dövlət və beynəlxalq əhəmiyyətli tədbirlər zamanı yarışların keçirildiyi məkanlarda da xidmətə cəlb olunurlar. Təhlükəsizliyin təmini məqsədi ilə tədbirlər zamanı dəmir yolu xəttinin bütün perimetri boyu mühafizə daha da gücləndirilir. Qorunan və qorunmayan keçid məntəqələrinə əlavə xidmətlər təyin olunur, şəxsi heyət gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Məsələn, sonuncu MDB Oyunları kimi beynəlxalq tədbirlər zamanı turistlərin qatarlarla hərəkəti nəzərə alınaraq həyata keçirilən təhlükəsizlik tədbirlərini nümunə göstərmək olar.

### Ağdam reysi xüsusi nəzarətdədir

Ötən il 32 ildən sonra ilk dəfə Bakıdan Ağdama qatarın hərəkətə başlaması da idarə üçün xüsusi məsuliyyət yaradıb. Bu, həm sərnişinlərin təhlükəsizliyinin təmin olunması, həm də azad edilmiş ərazilərə buraxılış rejiminə nəzarətin həyata keçirilməsi demək idi. Bu məqsədlə sərnişin qatarlarının müşayiəti üzrə Post-Patrul Xidməti əməkdaşları xüsusi planşetlərlə təchiz olunub. Bu cihazlar vasitəsilə sərnişinlərin şəxsiyyət vəsiqələri yoxlanılır, onların icazələrinin olub-olmaması müəyyən edilir. Ağdama gedən sərnişinlər Bakıda yoxlanıldığı kimi, azad edilmiş əraziyə çatanda da əlavə yoxlamadan keçirilir.

Bunun üçün idarənin maddi-texniki bazasının gücləndirilməsi də daim diqqətdə saxlanılır. İdarəyə yeni xüsusi rabitə vasitələri verilib, stansiyaların müşahidə kameraları ilə təchiz olunması istiqamətində işlər aparılır. Hətta polis məntəqələrində də videomüşahidə sistemlərinin quraşdırılması nəzərdə tutulur.

Böyük kəsik stansiyasında isə beynəlxalq standartlara uyğun müasir keçid-mühafizə sistemi qurulub.

### Qatara daş atanların məsuliyyəti

İdarə əməkdaşlarının mübarizə apardıqları digər mühüm məsələlərdən biri də hərəkətdə olan qatarlara kənardan daş atılmasıdır. Bu ilin ilk 3 ayında "Azərbaycan Dəmir Yolları" QSC-yə məxsus hərəkətdə olan qatarlara 11 dəfə daş atılıb.

Bu hallar zamanı qatarın pəncərəsi zədələnir, sərnişinlərin və qatar heyətinin həyatına təhlükə yaranır, bir çox hallarda isə qatar təcili tormozlama etdiyi üçün qrafikdə gecikmələr yaşanır.

Dəmək olar ki, əksər hallarda bu azyaşlılar tərəfindən edilir və qatara daş atan həmin şəxslərin valideynləri müəyyən olunaraq onlarla profilaktik söhbətlər aparılır. Həmçinin vurulan zərərin ödənilməsi təmin edilir və barələrində inzibati tədbirlər görülür.

# Silah təhdiddir, təhlükədir

## Aşkar edilən hər silah potensial cinayətlərin qarşısını alır

Azərbaycanda hökm sürən sabitliyin arxasında dayanan əsas amillərdən biri qanunsuz dövriyyədə olan silahların aşkar edilərək götürülməsidir. Aparılan əməliyyat və profilaktik tədbirlər nəticəsində silahların yığılması, həmçinin onların könüllü təhvil verilməsinə çağırışlar ictimai təhlükəsizliyə mühüm töhfə verir. Bu istiqamətdə görülən işlər ilk növbədə hüquq qaydasının qorunmasıdırsa, digər tərəfdən də insanların gündəlik həyatının daha təhlükəsiz olmasına xidmət edir.

Bunun nəticəsidir ki, ölkəmizdə odlu silahların tətbiqi ilə törədilən cinayətlərin sayı dünyanın bir çox dövlətləri ilə müqayisədə xeyli azdır. Dünya təcrübəsi göstərir ki, qanunsuz silahların geniş yayılması kriminal vəziyyətin kəskinləşməsinə, bəzən isə nəzarətdən çıxmasına səbəb olur. Bu baxımdan silahların dövriyyədən çıxarılması sabitliyin qorunmasının əsas şərtlərindən biri sayılır.

Nazirliyin son kollegiya iclasında səsləndirilən rəqəmlər göstərdi ki, yola saldığımız ildə ümumilikdə 5199 odlu silah aşkarlanıb. Onlardan 1079-u işğaldan azad edilmiş ərazilərdən götürülən döyüş silahlarıdır.

Həmçinin 2183 mərmi və 220 mindən çox patron tapılıb. Qanunsuz silah saxlama və daşıma ilə bağlı 502 fakt müəyyən edilib, bu cinayətlərə görə 153 nəfər tutulub.

Bu gün Azərbaycanda qanunsuz silahların aşkar olunaraq götürülməsi təkcə kriminal təhdidləri azaltmaq məqsədi daşımır. Bu fəaliyyət daha geniş məna kəsb edir. Xüsusilə Qarabağa Böyük Qayıdış prosesinin təhlükəsiz şəkildə həyata keçirilməsində, azad edilmiş ərazilərdə insanların rahat məskunlaşmasında bu tədbirlərin əvəzsiz rolu var. Bir vaxtlar silah və sursatla çirklənmiş torpaqlar günbəgün təhlükədən təmizlənir. Qarabağ və Şərqi Zəngəzurda aparılan geniş tikinti və quruculuq işləri də məhz təhlükəsizlik təmin edildikdən sonra mümkün olub.

Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən qanunsuz saxlanılan silah sursatın aşkar olunaraq götürülməsi istiqamətində tədbirlər fasiləsiz davam etdirilir.

Bu mübarizənin davamlılığını göstərmək üçün son bir neçə günün nəticələrinə nəzər salmaq kifayətdir. Yanvarın 31-dən fevralın 4-dək olan 4 gün ərzində 21 avtomat silahı, 1 pulemyot, 4 tapança, 55 tüfəng, 11 qumbara, 3 alışdırıcı, 28 patron darağı, 2607 ədəd müxtəlif çaplı patron, 55 mərmi və 2 süngü bıçaq aşkarlanaraq götürülüb.

Məsələ silah olunca, onun təyinatı bir o qədər də əhəmiyyətli olmur. Hətta mülki silahların saxlanma qaydalarına əməl olunmaması da ağır nəticələrə gətirib çıxara bilər. Bəzən adi ehtiyatsızlıq belə kiminsə həyatı bahasına başa gəlir. Çünki silah bir nəfərin şəxsi məsuliyyəti ilə məhdudlaşmır, o hər kəs üçün təhlükə mənbəyidir.

Bu səbəbdən onlarla mübarizə yalnız hüquq mühafizə orqanlarının işi kimi qəbul olunmamalıdır. Tapılan silah-sursatın könüllü şəkildə təhvil verilməsinin, silahdan mümkün qədər uzaq olmağın ümumi təhlükəsizliyə yalnız faydası var.

Polisin istər əməliyyat, istərsə də profilaktik tədbirləri məhz belə riskləri ilkin mərhələdə aradan qaldırmağa yönəlib.

# Adı tariximizdədir

## Milli Qəhrəmanın xatirəsi yad edilib

Azərbaycanın ilk Milli Qəhrəmanlarından biri olan polis leytenantı Məmmədov Səfərəli Qurban oğlunun anım günü qeyd olunub. Anım mərasimində iştirak edən Masallı RPŞ-nin polis əməkdaşları, digər dövlət qurumlarının və ictimaiyyətin nümayəndələri əvvəlcə Milli Qəhrəmanın təhsil aldığı Sərçuvar kənd məktəbinin həyətində ucaldılmış büstünün önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Çıxış edənlər Səfərəli Məmmədovun həyat və döyüş yolunun hər bir Azərbaycan gənci üçün örnək olduğunu, Milli Qəhrəmanın əziz xatirəsinin daim ehtiram ilə xatırlanacağını bildiriblər. Qeyd edək ki, daxili işlər orqanlarında xidmət etmiş Səfərəli Məmmədov Vətən uğrunda gedən döyüşlərdə iştirak edib. O, 1992-ci il fevralın 16-da Xocavənd rayonunun Qaradağlı kənd sakinlərini azğınlaşmış erməni dəstələrindən xilas edən zaman igidliklə döyüşərək şəhid olub. Polis əməkdaşı ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb. Masallı şəhərindəki mərkəzi küçələrdən birinə, cəsur döyüşçünün təhsil aldığı məktəbə onun adı verilib, şəhidin xatirəsinə həsr olunmuş “Qəhrəman polis” adlı sənədli film çəkilib.

# Tədbirlər keçirilir

## Polis qanuna dəvət edir

Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən rayon ərazisində hüquqpozmalara qarşı növbəti profilaktik tədbir keçirilib.

Tədbirlər zamanı məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılması, qanunsuz küçə ticarəti, xırda xuliqanlıq, məişət səs-küyü və digər qanun pozuntuları ilə əlaqədar faktlar aşkarlanıb.

Spirtli içki və narkotiklərin təsiri altında avtomobil idarə edən və dayanma-durma qaydalarını pozan sürücülər barəsində də inzibati tədbirlər görülüb. “Əcəmi dairəsi” və digər ərazilərdə keçirilən tədbirlərlə avtoxuliqanlıq, həmçinin konstruksiya dəyişikliyinə yol verən sürücülər də müəyyən olunub. Qayda pozan sürücülər barəsində qanunvericiliyin tələbinə uyğun məsuliyyət tədbirləri görülüb. Rayon ərazisində avtobus və ikitəkərli nəqliyyat vasitələrinin iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədilə də profilaktik tədbirlər həyata keçirilib.

Xatırladaq ki, qeyd edilən hüquqpozmalarla bağlı bütün ölkə ərazisində vaxtaşırı profilaktik və maarifləndirici tədbirlər də keçirilir, belə əməllərin qanunvericiliklə məsuliyyətə səbəb olduğu vətəndaşların diqqətinə çatdırılır.

# Piyadalara çağırış

## Qaydalara əməl etmək təhlükəsizliyin vacib şərtidir



Baş Dövlət Yol Polisi İdarəsi bir daha piyadaları şəxsi təhlükəsizliklərini qorumağa və yol hərəkəti qaydalarına ciddi əməl etməyə çağırıb.

Yol hərəkətinin ən müdafiəsiz iştirakçısı kimi piyadalara müraciət edərək bildirilib ki, ictimai nəqliyyatı minik meydançalarında, avtobus dayanacaqlarında, onlar olmadıqda isə səkidə və ya yol çiyinlərində gözləyin. Yolun hərəkət hissəsinə çıxmaq, nəqliyyat vasitələrinin hərəkət etdiyi zolaqlarda dayanmaq sizin həyat və sağlamlığınız üçün ciddi təhlükə, sürücülər üçün isə gözlənilməz maneə deməkdir. Unutmayın ki, bir anlıq diqqətsizlik ağır və arzuolunmaz nəticələrə gətirib çıxara bilər. Hər bir piyadanın qaydalara riayət etməsi ümumi yol hərəkəti təhlükəsizliyinin vacib şərtidir.

# Böyük Qayıdışın mühüm mərhələsi

## Risk zonasında peşəkarlar xidmət edir





Böyük Qayıdışın gerçəkləşməsi Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq layihələrinin ardıcıl icrası ilə davam edir. Mütəmadi olaraq köç karvanları yola salınır, doğma yurduna qayıdan insanlara dövlət hesabına tikilmiş yeni mənzillərin açarları təqdim olunur.

Ancaq bu proses yalnız tikinti və infrastruktur layihələrinin uğurla həyata keçirilməsi ilə də məhdudlaşmır. Uzun illər silahlı terror qruplaşmalarının yuvasına çevrilmiş bu torpaqlarda ictimai asayişin və təhlükəsizliyin təmin olunması əsas məsələ idi. Daxili işlər orqanlarının fədakar xidməti sayəsində həmin ərazilərə artıq əmin-amanlıq da qayıdıb. Bu gün də həmin ərazilər cinayətkar izlərdən, atılmış silah-sursatdan təmizlənir. Polis və Daxili Qoşunların birgə fəaliyyəti Böyük Qayıdışın təhlükəsizliyinin təmin olunmasında göstərilən vahid gücün və qətiyyətin bariz nümayişidir. Qayıdışın uğurla davam etməsi üçün ən vacib şərtlərdən biri təbii ki, minalarla çirklənmiş torpaqların təmizlənməsidir. Bu prosesdə yaxından iştirak edən Daxili Qoşunların istehkamçılarının peşə vərdişlərinin təkmilləşdirilməsi daim diqqət mərkəzində saxlanılır. Hərbi hissələrdən seçilmiş istehkamçı namizədlərin peşəkarlıq keyfiyyətlərinin təkmilləşdirilməsi üçün ANAMA-nın təlim-tədris mərkəzində kursa cəlb olunmaları təmin edilir. Bundan əlavə, müəyyən xarici ölkələrə, əsasən Türkiyə Respublikasına ezam olunurlar.

Daxili Qoşunların bir qrup istehkamçısı müharibədən sonra Minatəmizləmə Agentliyinin əməkdaşları ilə birlikdə Zəngilan, Qubadlı və Şuşa şəhərlərinin minalardan təmizlənməsində iştirak ediblər. Lokal xarakterli antiterror əməliyyatları zamanı isə yolların, körpülərin və digər strateji ərazilərin partlayıcı maddələrdən təmizlənməsinə cəlb olunublar.

Onu da xatırladaq ki, Vətən müharibəsi zamanı Daxili Qoşunların şəhidlik zirvəsinə ucalan 66 hərbçisindən 5-i məhz mühəndis-istehkamçıdır.

Bir sözlə, polis Qarabağ torpaqlarının üzərində ictimai asayişi və təhlükəsizliyi qoruyarkən, DİN-in istehkamçıları torpağın altında gizlənən ölüm tələlərini zərərsizləşdiriblər.

Böyük Qayıdışın təhlükəsizliyinin təməli Qarabağın təmizlənmiş torpaqlarında atılıb, yəni minatəmizləyən hərbçilərimiz də torpağın altında qalan düşmən izlərini, ölüm tələlərini təmizləməklə bu müqəddəs prosesin ən riskli mərhələsində yer alıblar.

# “Sərfəli kredit” yalanı ifşa oldu

## “Asan gəlir” vədlərinə aldanmayın

Binəqədi Rayon Polis İdarəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə sosial şəbəkələrdə bir neçə bank olmayan kredit təşkilatının rəsmi səhifələrinin oxşarını yaradaraq saxta elanlar yerləşdirib aşağı faizli kreditlər təklif edən 22 yaşlı Hacızeynal Hacıyev saxlanılıb. Bu üsulla onun çoxsaylı vətəndaşları aldadaraq külli miqdarda pul vəsaitini taladığı məlum olub.

Aparılan araşdırmalarla müəyyən edilib ki, zərərçəkənlər H.Hacıyevin yaratdığı səhifələrdəki elanlara inanaraq şəxsi və bank kartı məlumatları, eləcə də müxtəlif məbləğlərdə maddi vəsaitləri qarşı tərəfə göndəriblər. Saxlanılan şəxs pulu ələ keçirdikdən sonra məsuliyyətdən yayınmaq üçün həmin hesabları bloklayıb. Faktlarla bağlı araşdırmalar davam etdirilir.

Bir daha vətəndaşlara tövsiyə olunur ki, internet resurslarındakı “onlayn qazanc”, “asan gəlir”, “sərfəli kredit” və bu kimi adlar altında paylaşılan elanlara qarşı diqqətli olsunlar. Bunun üçün şübhəli şəxslərə, səhifələrə və linklərə daxil olaraq kart məlumatları göndərilməməli, belə hallarla rastlaşdıqda isə dərhal polisə məlumat verilməlidir.

# Ekoloji təhlükəsizlik prioritetdir

## Ətraf mühitin mühafizəsi diqqətdə saxlanılır

**Ekoloji tarazlığın təmin olunması və təbiətin mühafizəsi ölkə rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır. Bu gün müvafiq dövlət qurumları ilə yanaşı polis də ətraf mühitin mühafizəsində birbaşa iştirak edir. Polis əməkdaşlarının həyata keçirdiyi nəzarət tədbirləri ilə təbiət sərvətlərinin, xüsusən meşə massivlərinin məhv edilməsi, yerin təkindən istifadə qaydalarının pozulmasının qarşısı alınır, qanunsuz fəaliyyətlər vaxtında aşkarlanaraq qanunamüvafiq tədbirlər görülür.**



Ötən ilin statistikasına görə daxili işlər orqanları tərəfindən ekoloji cinayətlərlə bağlı 263 fakt qeydə alınıb. Onlardan 106-sı balıq və digər su bioresurslarının qanunsuz ovlanması, 118-i qanunsuz ağac kəsmə ilə bağlı olub. Ötən il qanunsuz ovçuluq fəaliyyəti ilə bağlı 160, ağackəsmə ilə əlaqədar 36 inzibati xəta aşkarlanıb. Bu faktlar üzrə 30 nəfər barəsində inzibati cərimə tətbiq olunub, 164 nəfər barəsində materiallar aidiyyəti dövlət orqanlarına göndərilib.

Şəhər mühitinin sanitar-gigiyenik təhlükəsizliyi və səliqəsi baxımından qanunsuz küçə ticarətinə qarşı da tədbirlər görülür. Şəhər və rayon polis orqanları tərəfindən qanunsuz küçə ticarətinə görə 13831 nəfər inzibati məsuliyyətə cəlb olunub. Bu göstəricinin 8625-i Bakı şəhərinin payına düşür. Məişət tullantılarının tutumlardan kənara atılması və tutumların yerləşdirilməsi zamanı müəyyən edilmiş məsafə tələblərinə əməl olunmaması səbəbindən 7153 nəfər inzibati məsuliyyətə cəlb edilib.

Birgə tədbirlərin səmərəliliyi də diqqət çəkən amillərdəndir. Polis əməkdaşlarının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri ilə birgə həyata keçirdiyi tədbirlər zamanı İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrini pozmuş 1057 şəxs müəyyən edilərək məsuliyyətə cəlb olunub. Respublika üzrə torpaq üzərində mülkiyyət hüququnun pozulması faktı ilə bağlı 442 cinayət işi başlanıb. Özbaşına tikinti işləri apardıqlarına görə 690 nəfər inzibati məsuliyyətə cəlb olunub.

Polis əməkdaşları həmçinin işğaldan azad olunan bölgələrdə sanitariya-gigiyena qaydaları ilə bağlı da mütəmadi olaraq tədbirlər keçirir. Həmin ərazilərdə yaşayan, işləyən və səfər edən şəxslərə təhlükəsizlik qaydaları ilə yanaşı sanitariya-gigiyena tələbləri izah edilir, məlumatlar verilir. Qaydalara əməl etməyən şəxslərlə bağlı inzibati tənbeh tədbirləri görülür.

Ümumi mənzərə göstərir ki, ötən il ərzində polis həm təbiətin qorunması, həm də şəhər mühitinin nizamlı saxlanılması istiqamətində intensiv fəaliyyət göstərib. Aşkar edilən faktlar ekoloji mühitə nəzarət mexanizmlərinin fəal işlədiyini ortaya qoyur.

*R.Mehtiyev*

# Narkotiklərə qarşı silsilə əməliyyatlar

## Külli miqdarda narkotik vasitə dövriyyədən çıxarılıb




Polis əməkdaşlarının keçirdiyi əməliyyatlar nəticəsində paytaxt və bölgələrdə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan bir neçə şəxs saxlanılıb və onlardan onlarla kiloqram narkotik vasitə götürülüb.

Sabunçu Rayon Polis İdarəsinin əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı əməliyyat keçirib. Tədbir zamanı narkokuryerliklə məşğul olmaqda şübhəli bilinən, əvvəllər məhkum olunan 27 yaşlı Əli Əliyev saxlanılıb. Həmin şəxsdən 4 kiloqram 20 qram tərkibinə psixotrop maddələr əlavə edilən marixuana və metamfetamin aşkarlanıb.

Saxlanılan şəxs ifadəsində narkotikləri sosial şəbəkədə tanış olduğu İran vətəndaşı vasitəsilə əldə etdiyini və paytaxt ərazisində ayrı-ayrı ünvanlara maddi gəlir qarşılığında çatdıracağını bildirib. Ə.Əliyev barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdiyi əməliyyat tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən, əvvəllər məhkum olunmuş İntiqam Ağayev saxlanılıb.

Onun üzərinə və narkotiki saxladığı yarımtikiliyə baxış zamanı 7 kiloqramdan artıq marixuana aşkarlanıb. Məhkəmənin qərarı ilə İ.Ağayev barəsində həbs qətimkan tədbiri seçilib.

Astara Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə əvvəllər də analoji cinayətlərə görə məhkum olunmuş 25 yaşlı Emin Quliyev saxlanılıb. Ondan 43 kiloqram marixuana və 1520 ədəd psixotrop tərkibli həb aşkarlanıb. Şöbə əməkdaşlarının narkotiklərin qanunsuz dövriyyəsinə qarşı keçirdikləri növbəti əməliyyat zamanı isə 35 yaşlı Yusif Xalıqov saxlanılıb. Ondan isə 21 kiloqram marixuana aşkarlanaraq götürülüb. Hər 2 şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Faktlarla bağlı araşdırmalar davam etdirilir.

# Xüsusi Təyinatlıların Çempionatı

## Əlahiddə Çevik Polis Alayı “SWAT Challenge 2026”-da iştirak edib

**Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən “UAE SWAT Challenge 2026” beynəlxalq yarışması başa çatıb. Dubay Polisi tərəfindən təşkil olunan bu nüfuzlu turnir taktiki bacarıq, sürət və strategiyanı sınamaq üçün hazırlanmış genişmiqyaslı yarışdır.**

Dünyanın müxtəlif ölkələrindən elit xüsusi təyinatlı polis və taktiki bölmələrini bir araya gətirən yarış iştirakçılara qlobal səviyyədə peşəkarlıqlarını nümayiş etdirmək imkanı yaradır.

“UAE SWAT Challenge” dünya üzrə hüquq-mühafizə orqanları arasında əməkdaşlığın gücləndirilməsi, təcrübə mübadiləsinin genişləndirilməsi və ortaq peşəkar dəyərlərin təşviqi baxımından mühüm platforma hesab olunur.

Turnir dünya səviyyəli təlim mühitində real həyat ssenarilərinin simulyasiyası əsasında keçirilir. Tədbirin əsas məqsədi beynəlxalq SWAT qrupları arasında taktiki texnika və bacarıqların mübadiləsini təşviq etmək, fiziki dözümlülük, zehni hazırlıq və komanda koordinasiyasını ön plana çıxarmaqdır.

Bu ilki çempionat 7-11 fevral tarixlərində Dubay SWAT Təlim Mərkəzində keçirilib. Turnirdə ümumilikdə 48 ölkəni təmsil edən 109 SWAT komandası beş müxtəlif çətinlik kateqoriyasında mübarizə aparıb. Yarışın ümumi mükafat fondu isə 260 min ABŞ dolları təşkil edib.

Beynəlxalq turnirin ümumi sıralamasında 536 xal toplayaraq “SWAT Challenge 2026”- nın yeddinci buraxılışının ümumi çempionu adını Qazaxıstanın komandası qazanıb.







Turnirdə Azərbaycan da DİN Əlahiddə Çevik Polis Alayının “Çevik Polis” komandası ilə təmsil olunub. Bütün mərhələlərdə iştirak edərək tapşırıqları icra edən komandanın üzvləri taktiki hazırlıqlarını nümayiş etdiriblər. 2019-cu ildən keçirilən dünya xüsusi təyinatlılarının beynəlxalq yarışında ilk dəfə çıxış etməsinə baxmayaraq, Polis Alayı turnir boyunca mübarizəni əzmlə davam etdirib. Beynəlxalq yarışa ardıcıl 7-ci dəfə gələn və bir neçə komanda ilə təmsil olunan ölkələrin xüsusi təyinatlıları ilə yarışan əməkdaşlarımız üçün çempionat zəngin təcrübə olub.

Komandalar beş əsas mərhələ üzrə yarışıb. Bu tapşırıqlara hücum hadisəsi, girovların xilas edilməsi, yaralı polis əməkdaşının xilas edilməsi, qülləyə hücum və maneələri keçmək daxildir. Hər bir mərhələ iştirakçılardan həm yüksək fiziki hazırlıq, həm də dəqiq taktiki planlaşdırma tələb edib.

Maneələri keçmək güc, sürət və strategiyanın sınağı kimi qiymətləndirilib. Beş nəfərlik komanda 19 müxtəlif fiziki maneəni birlikdə aşmalı, dəqiq hərəkət etməli və missiya planına uyğun işləməli olub. Yaralı polis əməkdaşının xilas edilməsi tapşırığında isə komandalar yüksək təzyiq altında təhlükəsizlik qaydalarına riayət etməklə yanaşı atəş açma, maneələri dəf etmə və yaralını təhlükəsiz əraziyə çıxarma kimi kompleks fəaliyyətləri yerinə yetiriblər.

Bəzi mərhələlərdə komanda strukturu dörd hücum üzvü və bir snayperdən ibarət olub. Digər tapşırıqlarda isə üç hücumçu və iki snayper birlikdə fəaliyyət göstərərək müxtəlif mövqelərdən uzaq və yaxın məsafəli hədəfləri məhv edib, qülləyə dırmaşma və enmə kimi taktiki elementləri icra ediblər. Maneə mərhələsində isə beş üzvün hamısı bərabər şəkildə bütün marşrutu qət edib və bu mərhələdə snayper rolu nəzərdə tutulmayıb.

# Voleybol çempionatı başa çatıb

## DİN Daxili Qoşunların Baş İdarəsi birinci oldu




Daxili İşlər Nazirliyinin voleybol üzrə çempionatı başa çatıb.

Çempionat DİN-in daxili işlər orqanlarında fiziki hazırlıq işinin təşkilinə dair müvafiq əmrinə uyğun olaraq İdman Cəmiyyətində keçirilib. Əməkdaşların fiziki hazırlığının gücləndirilməsi, sağlam həyat tərzinin təşviqi və kollektiv ruhun möhkəmlənməsi məqsədi daşıyan yarışda iştirakçılar meydanda yüksək əzmkarlıq və komanda birliyi nümayiş etdiriblər. Qarşılaşmalar Bakı şəhər BPİ, Daxili Qoşunların Baş İdarəsi, Nəqliyyatda Baş Polis İdarəsi, Baş Dövlət Yol Polisi İdarəsi, Baş Mühafizə İdarəsi, Polis Akademiyası, Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəb, Diplomatik Nümayəndəliklərin Mühafizəsi üzrə Əlahiddə Polis Taboru və Əlahiddə Çevik Polis Alayının komandaları arasında keçirilib.

Nəticələrə əsasən Daxili Qoşunların Baş İdarəsinin komandası birinci yerə layiq görülüb. Əlahiddə Çevik Polis Alayı ikinci pillədə qərarlaşıb. Baş Mühafizə İdarəsinin voleybolçuları isə üçüncü yeri tutub.

Qaliblərə kubok və medallar təqdim olunub.

# Media savadlılığı cəmiyyət üçün vacibdir

## Hansı məlumatlara etibar etməliyik?




Müasir dövrdə informasiya sürətlə yayılır və hər yayılan xəbər doğru olmur. Xüsusilə sosial şəbəkələrdə paylaşılan məlumatlar bəzən yoxlanılmadan geniş auditoriyaya çatdırılır. Buna görə də hansı məlumatlara etibar etməli olduğumuzu bilmək vacibdir.

İlk növbədə, məlumatın mənbəyinə diqqət yetirilməlidir. Rəsmi qurumların və tanınmış xəbər agentliklərinin yaydığı informasiyalar daha etibarlı sayılır. Müəllifi göstərilməyən və ya naməlum saytlarda yerləşdirilən xəbərlərə şübhə ilə yanaşmaq lazımdır.

Etibarlı məlumat adətən faktlara, statistik göstəricilərə və real sübutlara əsaslanır. Xəbərdə emosional və şişirdilmiş ifadələr çoxdursa, bu, manipulyasiya əlaməti ola bilər. Başlıq sensasiyalı olsa da, məzmunu diqqətlə oxumaq vacibdir. Yalnız bir mənbəyə deyil, bir neçə fərqli mənbəyə baxmaq daha düzgün nəticə çıxarmağa kömək edir. Tarix və vaxt göstəricilərinə diqqət yetirmək də önəmlidir, çünki köhnə məlumat yeni hadisə kimi təqdim oluna bilər.

Şəkil və videoların da həqiqiliyini yoxlamaq lazımdır, çünki onlar montaj edilə və ya kontekstdən çıxarıla bilər. Sosial şəbəkədə çox paylaşılması xəbərin doğru olması demək deyil. Media savadlılığı insanlara məlumatı təhlil etməyi və obyektiv düşünməyi öyrədir. Məktəblərdə və ictimai mühitdə bu bacarığın aşılanması gələcək nəsillər üçün vacibdir. Maarifli insan emosiyalara deyil, sübutlara əsaslanır.

Saxta xəbərlər cəmiyyətdə çaşqınlıq yarada və ictimai etimadı zəiflədə bilər. Doğru məlumat isə sağlam qərar verməyə kömək edir. Hər bir vətəndaş paylaşım etməzdən əvvəl məlumatı yoxlamağa məsuliyyət daşıyır. Etibarlı informasiya mənbələrinə üstünlük vermək cəmiyyəti inkişafına müsbət təsir göstərir. Media savadlılığı güclü olan cəmiyyət manipulyasiyalara qarşı daha davamlı olur.

*A.Tahirova*

# Stereotipləri qıran qadın

## Tarixə düşən ilk addım



XX əsrin sonlarında hüquq-mühafizə orqanlarında rəhbər vəzifələr, demək olar ki, tamamilə kişilərin nəzarətində idi. Belə bir dövrdə 1985-ci ildə ABŞ-nin Oreqton ştatının Portland şəhərində polis rəisi vəzifəsinə bir qadının təyin olunması təkcə kadr dəyişikliyi deyildi - bu, sistem daxilində düşüncə inqilabı idi. Həmin qadın Penni Harinqton idi.

Harinqton uzun illər ərzində sıravi polis əməkdaşı kimi fəaliyyət göstərmiş, patrul xidmətində çalışmış, istintaq sahəsində təcrübə qazanmış və mərhələli şəkildə rəhbər pillələrə yüksəlmişdi. Onun karyerası təsadüfi uğurun deyil, ardıcıl zəhmətin, peşəkarlığın və prinsipial mövqeyin nəticəsi idi.

O dövrdə qadın polis əməkdaşlarına münasibət birmənalı deyildi. Onlar çox zaman ikinci planda saxlanılır, rəhbərlik potensialları ciddi qəbul olunmurdu. Harinqton isə bu stereotipləri əməli fəaliyyəti ilə dağıtdı. O, sübut etdi ki, idarəetmədə əsas meyar bacarıq və liderlik keyfiyyətidir.

### Çətinliklər fonunda formalaşan liderlik

Penni Harinqtonun gəlişi asan qəbul olunmadı. Həm cəmiyyət daxilində, həm də polis strukturunda müəyyən müqavimətlər mövcud idi. Lakin o, emosional reaksiyalarla deyil, sistemli yanaşma ilə cavab verdi. Onun rəhbərliyi dövrünün əsas istiqamətləri peşə hazırlığının gücləndirilməsi, daxili intizam və etik davranış standartlarının sərtləşdirilməsi, polis-ictimaiyyət münasibətlərinin sağlam əsaslarda qurulması, idarəetmədə şəffaflığın artırılması idi.

Harinqton inanırdı ki, polis orqanlarının gücü yalnız inzibati səlahiyyətlərdə deyil, cəmiyyətin etimadındadır. Bu baxış onu klassik idarəetmə modelindən fərqləndirir və müasir polis anlayışına yaxınlaşdırırdı.

### Qadınların polis sistemində yeni mərhələsi

Harinqtonun fəaliyyəti bir simvola çevrildi. Onun təyinatı qadın polis əməkdaşları üçün yeni perspektiv açdı. Artıq qadınlar yalnız sosial və yardımçı istiqamətlərdə deyil, operativ və rəhbər vəzifələrdə də özlərini təsdiq edə biləcəklərini gördülər. O, sübut etdi ki, liderlik fiziki gücdən yox, strateji düşüncədən qaynaqlanır, böhran vəziyyətlərində soyuqqanlılıq isə əsas üstünlüklərdən biridir. Hər bir insana fərdi şəkildə həssas yanaşma isə polisin fəaliyyətini zəifləmir, əksinə onu daha da gücləndirir. Bu prinsiplər sonrakı illərdə dünyanın müxtəlif ölkələrində qadınların polis orqanlarında daha geniş təmsil olunmasına stimul verdi.

### Tarixi ənənədən müasir mərhələyə

Bu gün dünyada müşahidə olunan bu tendensiya Azərbaycandan da yan keçməmişdir. Azərbaycan Respublikasında qadınların daxili işlər orqanlarında xidməti artıq formalaşmış və inkişaf edən bir istiqamətdir. Azərbaycan qadın polisləri hazırda müxtəlif sahələrdə - post patrul xidmətində, istintaq orqanlarında, yetkinlik yaşına çatmayanlarla iş, insan alverinə qarşı mübarizə sahəsində, ailə-məişət zorakılığı halları üzrə araşdırmalarda və digər mühüm istiqamətlərdə fəaliyyət göstərirlər.

Qadın əməkdaşlar ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli idman yarışları, kütləvi tədbirlərdə, profilaktik işlərdə və ictimai asayişin qorunmasında birbaşa rol oynayırlar.

### Peşəkarlıq və humanizm vəhdəti

Müasir polis fəaliyyəti yalnız qanunun tətbiqi ilə məhdudlaşmır. Bu fəaliyyət həm də psixoloji həssaslıq, ünsiyyət bacarığı və sosial yanaşma tələb edir. Xüsusilə ailə-məişət münaqişələri, azyaşlılarla bağlı hallar və həssas sosial qruplarla iş zamanı qadın əməkdaşların rolu əvəzsizdir. Azərbaycan qadın polisləri öz cinslərindən olan zərərçəkmişlərlə daha effektiv ünsiyyət qurur, profilaktik tədbirlərin səmərəliliyini artırır, ictimai etimadın möhkəmlənməsinə töhfə verir və polisin humanist simasını daha möhkəmləndirirlər. Bu xüsusiyyətlər müasir polis modelinin əsas tələbləri ilə üst-üstə düşür. Son illərdə qadın əməkdaşların sayında və məsul vəzifələrdə təmsilçiliyində artım müşahidə olunur. Bu isə sistem daxilində gender balansının formalaşdığını göstərir. Azərbaycan polis sistemində qadınların uğurlu fəaliyyəti göstərir ki, peşəkarlıq cinsiyyət anlayışı ilə ölçülmür. Əsas olan hazırlıq, intizam, məsuliyyət və dövlətə sədaqətdir.

Bu mənada Penni Harinqtonun vaxtilə ABŞ-da atdığı addım ilə Azərbaycan qadın polislərinin bugünkü fəaliyyəti arasında məntiqi paralel mövcuddur. Hər iki halda məqsəd cəmiyyətin təhlükəsizliyini təmin etmək və qanunun aliliyini qorumaqdır.

*A.Tahirova*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik